UOT 37.0

***Şəhriyar Məzahir oğlu Məcidov***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# PLANLAŞDIRMA MÜƏLLİMİN TƏDRİS FƏALİYYƏTİNİ QİYMƏTLƏNDİRƏN PEDAQOJİ ƏSAS KİMİ

***Шахрияр Мазахир оглы Маджидов***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ПЛАНИРОВАНИЕ КАК ПЕДАГОГИЧЕСКАЯ ОСНОВА ОЦЕНИВАНИЯ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЯ

***Shahriyar Mazahir Majidov***
*doctorial student in the program of doctor of philosophy*
*Institute of Education of the Republic of Azerbaijan*

# PLANNING AS A PEDAGOGICAL BASIS FOR EVALUATING THE TEACHER'S LEARNING ACTIVITY

**Xülasə.** Məqalədə müəllimin tədris fəaliyyətinin planlaşdırılması və layihələndirilməsindən bəhs olunmuşdur. Belə ki, tədris prosesinin sistemli və ardıcıl qurulması, səmərəli və keyfiyyətli təşkili üçün planlaşdırma olduqca mühümdür. Zaman – zaman müəllimin tədris fəaliyyətinin planlaşdırılması ilə bağlı fərqli fikirlər səslənsə də, planlaşdırmanın əhəmiyyəti haqqında bütün mütəxəssislərin fikirləri, demək olar ki, eynidir: Hər bir müəllim tədris fəaliyyətinin keyfiyyətli, nəticələrin yüksək olmasını istəyirsə, o mütləq öz tədris fəaliyyətini düzgün planlaşdırmalı və görəcəyi işləri əvvəlcədən aydınlaşdırmalıdır.
***Açar sözlər:*** *müəllim, tədris fəaliyyəti, planlaşdırma, layihələndirmə, keyfiyyət*

**Резюме**. В статье повествуется о планировании и проектировании учебной деятельности учителя. Следовательно, планирование очень важно для системного и последовательного построения, эффективной и качественной организации учебного процесса. Хотя время от времени возникают разные мнения о планировании учебной деятельности учителя, все эксперты сходятся во мнении о важности планирования. Если каждый учитель желает качественной учебной деятельности и достижения высоких результатов, то он должен правильно спланировать учебную деятельность и заранее уточнить предстоящую работу.
***Ключевые слова:*** *учитель, учебная деятельность, планирование, проектирование, качество*

**Summary.** The article tells about the planning and design of the teacher's educational activities. Consequently, planning is very important for a systematic and consistent construction, effective and high-quality organization of the educational process. Although opinions differ from time to time about planning a teacher's learning activity, all experts agree on the importance of planning. If every teacher wants high-quality learning activities and the achievement of high results, then he must correctly plan the learning activities and clarify the work ahead in advance.
**Key words**: *teacher, learning activities, planning, design, quality*

Müəllimin tədris fəaliyyətinin qiymətləndirilməsi bir neçə pedaqoji əsas üzərindən aparılır. Onlardan biri də müəllimin tədris fəaliyyətinin layihələndirilməsi və planlaşdırılması işinin qiymətləndirilməsidir.

Planlaşdırma istənilən sahədə fəaliyyət göstərmək üçün müəyyən vəzifələrin qarşıya qoyulması və onların həyata keçirilməsidir. Planlaşdırma olmadan işin düzgün icrası, prosesi

təşkil edən mərhələlərin ardıcıllığı, səbəb - nəticə əlaqəsinin düzgün qurulması mümkün deyil.

Planlaşdırma yeni pedaqoji istilah deyil. Zaman-zaman onun mahiyyəti və məsələləri haqqında çoxlu fikirlər səsləndirilmiş, vacibliyi diqqətə çatdırılmışdır. Lakin təhsil sistemində aparılan son islahatlar bu sahədə də bir sıra yeniliklərin olmasını zərurətə çevirmişdir. Ölkə elmi-pedaqoji ictimaiyyəti arasında müəllimin tədris fəaliyyətinin planlaşdırılması və layihələndirilməsi məsələsi ilə bağlı bir sıra mülahizələr yaranmışdır. Həmin fikirlərin bir qismi ilə tanış olmaqla müasir təhsil sistemi şəraitində planlaşdırmanın əhəmiyyəti haqqında müəyyən qənaətə gəlmək mümkündür.

Prof. Fərrux Rüstəmov planlaşdırma haqqında yazır: "Dərsin düzgün planlaşdırılması tədrisin səmərəli qurulmasının əsas şərtidir. Bu zaman müəllimlərə müəyyən sərbəstlik verilməlidir. Müəllim bir sıra funksiyalar yerinə yetirməlidir. Müasir müəllim şagirdə hazır bilik verməməli, onun başında fikrin meydana gəlməsinə kömək etməlidir" (1, s. 60 ).

Planlaşdırmanı tədris prosesinin səmərəliliyini artıran vasitə kimi dəyərləndirən alim bu zaman müəllimə sərbəstlik verilməsinin vacibliyini qeyd edir.

Əlbəttə, plansız qurulan tədris prosesinin nəinki son nəticəsində səmərə olmaz, hətta tədrisin istənilən mərhələsində qarşıya qoyulmuş məqsədə çatmaq mümkün deyil. Müəllimə planlaşdırma zamanı müəyyən sərbəstlik verilməsinə gəlincə, əlbəttə, planlaşdırma nümunələrində standartlar mövcuddur. Lakin yaradıcı müəllim onun hər hansı bir mərhələsi ilə bağlı fərqli qaydalar tətbiq edə bilər.

Dosent Bibixanım İbadova müəllimin tədris fəaliyyətinin planlaşdırılması ilə bağlı olaraq yazır: "Dərs planı müəllimin dərsə hazırlığının ölçüsü, meyarı, onun fərdi fəaliyyətinin güzgüsüdür. Dərs planı təkcə müəllimin deyil, həm də şagirdlərin fəaliyyətini özündə ehtiva edir. Dərs planı hazırlanarkən müəllim tərəfindən məzmun standartları seçilir və standartlara əsasən təlim məqsədi, məqsədə uyğun iş forması, iş üsulu, inteqrasiya imkanları, resurslar, dərsin hər mərhələsinə sərf olunacaq vaxt, motivasiya və tədqiqat sualı, şagirdlərə veriləcək tapşırıqlar, müzakirə üçün suallar, qiymətləndirmə meyarları müəyyən edilir". (1, s.62)

Göründüyü kimi burada planlaşdırma haqqında daha geniş məlumat verməklə həm də onun mahiyyəti şərh edilir, əsaslandırılır. Əhəmiyyətli cəhətlərdən biri də odur ki, planlaşdırma təkcə müəllimin yox, həm də şagirdin təlim fəaliyyətinin təşkilində əsas olduğu irəli sürülür.

Pedaqogika üzrə fəlsəfə doktoru Fəxrəddin Yusifov planlaşdırma haqqında yazır: "Əgər planlaşdırma üçün vahid qaydalar vardırsa, mütləq o da həyata keçirilməlidir. Orta məktəb müəllimini çoxvariantlılıq bəlasından qurtarmaq lazımdır. Hər bir dərs modelinin xarakterinə uyğun gələn və vahid yanaşmanı özündə əks etdirən "dərsin texnoloji xəritəsi"hazırlanmalı və o, müəllimlərin ixtiyarına verilməlidir" (1, s.67).

Burada da planlaşdırmanın tərtibinin vacibliyi qeyd olunur. Hətta daha konkret olaraq dərslərin müəyyən modelinə uyğun olaraq vahid yanaşmaların tətbiqi və bununla da çoxvariantlılıqdan azad olmağın əhəmiyyəti haqqında fikir irəli sürülür.

Ənvər Abbasov dərsin planlaşdırılmasının çox böyük əhəmiyyət daşıdığını qeyd edərək yazır: "Dərs planı müəllimin sənədidir. Onu müəllim hazırlayır. İllər uzunu bu sənədin hazırlanıb – hazırlanmaması müzakirə obyekti olub. O müzakirələr bu gün də davam edir. Dərsin planının hazırlanması vacib məsələdir. O həm müəllimin inkişaf etməsi, həm də təlim prosesinin idarə olunması baxımdan əhəmiyyəti var. Ona görə də dərs planının hazırlanmasına ciddi yanaşılmalıdır" (1, s. 56).

Yuxarıda qısaca olaraq sadaladığımız fikirlərdən belə qənaətə gəlmək olur ki, planlaşdırma müəllimin tədris fəaliyyətinin əsasını təşkil edir. Təhsil sistemində hər nə qədər yeni yanaşmalar tətbiq olunsa da, planlaşdırmaya lazımsız bir məsələ kimi baxmaq doğru deyil.

Müəllimin tədris fəaliyyətinin hansı səviyyədə olması, heç şübhəsiz ki, onun dərsə hazırlıq səviyyəsindən asılıdır. Müəllim dərsə hazırlaşmadan onu yaxşı qura bilməz. Dərsə hazırlıq tədris prosesinin əsasında dayanır.

Prof. Ə.Ə. Ağayev müəllimin dərsə hazırlaşmasını vacib şərt kimi irəli sürərək bunun üç istiqamətini göstərmişdir:

1. Müəllimin ümumi hazırlığı
2. Müəllimin proqram üzrə dərsə hazırlaşması

3. Müəllimin mövzu üzrə hər bir dərsə hazırlaşması

Əgər müəllim deyilən bu üç istiqaməti öz tədris fəaliyyətində diqqətdə saxlamırsa, onun tədris fəaliyyəti istənilən səviyyədə ola bilməz. Göstərilən birinci istiqamət nə qədər ümumi xarakter daşısa da, bir o qədər vacib məsələdir. Müəllim ümumi dünyagörüşü baxımdan, psixoloji-emosional, iradi cəhətdən hazırlıqlı, tədrisin ilk şərtlərinin nədən ibarət olduğunu bilməlidir.

Müəllimin proqram üzrə hazırlığı müəllimin tədris fəaliyyətinin qiymətləndirilməsində vacib şərt kimi diqqətdə saxlanılmalıdır. Bura nələr daxildir? Müəllim ilk növbədə iyul-avqust aylarında müəyyən konfrans, təlim və tədbirlərdə iştirak edir. Tədris fənni üzrə fənn proqramı ilə tanış olur, proqramda hansı dəyişikliklərin olduğunu müşahidə edir, özü üçün lazımlı informasiyalar əldə edir. Məktəb təcrübəsində deyilən bu məsələləri öz hazırlığı prosesində aydın şəkildə həyata keçirən müəllimlərimiz vardır. Lakin məktəb təcrübəsinin təhlili göstərir ki, bu sahədə işlər heç də yüksək səviyyədə deyil. Müşahidələr zamanı aydın olur ki, bəzi müəllimlər öz ixtisas fənni üzrə proqramla tanış olmur, aparılan dəyişikliklərlə maraqlanmır, fənnin məzmununda və dərsliklərdə baş verən yeniliklərdən xəbərdar olmurlar. Dərs başlanan zaman isə, əvvəlki tədris ilinə məxsus biliklərlə yeni tədris mövsümünə başlayır. Hətta perspektiv planlaşdırma aparan zaman belə yeniliklərin hansı səviyyədə olması ilə maraqlanmır, planlaşdırmanı düzgün aparmır və yekunda dərs ili müddətində planlaşdırmada çoxlu dəyişiklər etməyə məcbur qalır.

Göstərilən üçüncü istiqamət də müəllimin tədris fəaliyyətinin qiymətləndirilməsində olduqca vacib həlqələrdən biridir. Müəllimin dərsinin uğurlu olması konkret dərsə nə dərəcədə hazırlaşmaqdan çox asılıdır. Təcrübələr göstərir ki, bir qisim müəllimlər kifayət qədər əməksevərlik nümayiş etdirərək aparacağı dərslə bağlı gündəlik planlaşdırma nümunəsi hazırlayıb onda dərsin 45 dəqiqə üzrə dəqiq açıqlamasını göstərir. Dərslə bağlı hazırlıq işlərini yalnız planlaşdırma ilə bitmiş hesab etmir, iş vərəqləri, əyani və texniki vəsaitlər hesabına dərslərin daha maraqlı, elmli və faydalı olmasına çalışır. Lakin, ikinci hazırlıq üzrə diqqətsizlik edən müəllimlər kimi, bu mərhələdə də kifayət qədər öz üzərində işləməyən, heç bir hazırlıq işi görməyən, yalnız dərs başlayanda jurnalı götürüb dərsə girən müəllimlər də az deyildir.

Bir məsələni də qeyd etmək lazımdır ki, elə müəllimlər var ki, qeyd olunan hər üç istiqamət üzrə öz işlərini müasir tələblər səviyyəsində qururlar.

Dərs özü bir prosesdir. Bu prosesi idarə etmək, uğurlu sonluğa çatdırmaq üçün müəllim bir sıra bilik və bacarıqlara malik olmalıdır. Bunlar arasında dərsi düzgün planlaşdıra bilmək bacarığı da xüsusi əhəmiyyət daşıyır. Afət Süleymanova "dərsi təşkil etməyə qadir olmaq üçün müəllim hansı bilik və bacarıqlara malik olmalıdır?" sualını cavablandırarkən yazır: “Müəllim təhsil standartları və fənn proqramlarının məqsədini, prinsiplərini dərk etməli, təhsil pilləsi və fənnin xüsusiyyətlərini nəzərə alınmaqla dövlət sifarişini əks etdirən təhsil standartlarının tətbiqinin təşkili üçün öz strategiyasını müəyyən etməlidir. Bu zaman o, standartların tətbiqinə şərait yaradan dəqiq illik planlaşdırma aparmağı bacarmalıdır. Bu prosesdə həftəlik və gündəlik planlaşmanın da dəqiqliklə işlənməsi vacibdir. Planlaşmada məqsədə nail olmaq üçün müəyyən edilmiş dərs formaları, təlim üsulları, təlim fəaliyyətləri, istifadə ediləcək resurslar, qiymətləndirmənin üsul və vasitələri, müəyyən edilməlidir. Müəllim nəzərdə tutulmuş bu işləri təlim prosesində yüksək peşəkarlıqla gerçəkləşdirməyə qabil olmalıdır (2, s. 25).

Dərs özünəməxsus struktura, prinsipə malik olan təlimin təşkili formalarından biridir. Onun keyfiyyəti ən son nəticənin hansı sə-viyyədə olmasından asılıdır və onunla xarakterizə olunur. Lakin ən son nəticənin keyfiyyətli olması üçün öncə dərsi düzgün planlaşdırmaq, layihələndirmək, ən xırda detalı belə diqqətdən kənar qoymamaq lazımdır. "Pis planlaşdırılmış, kifayət qədər düşünülməmiş, tələsik layihələndirilmiş, şagirdlərin imkanlarına uyğun gəlməyən dərs keyfiyyətli ola bilməz. Dərsə hazırlaşmaq, təlim prosesini elə təşkil etmək deməkdir ki, o konkret şəraitdə ən yüksək son nəticəni təmin etsin (3. s.).

Müasir dərs nə qədər yaradıcı xarakterə malik olsa da, onu planlaşdırma olmadan həyata keçirmək əlbəttə, mümkün deyil. Fəal dərsin uğurlu şəkildə həyata keçirilməsi üçün uğurlu bir planlaşdırmanın aparılması vacibdir. Z.

Veysova bunu nəzərdə tutaraq fəal dərsin planını aşağıdakı şəkildə təklif edir:

1. Dərsin məqsədlərini müəyyən etmək;
2. Dərsin növünü (induktiv və ya deduktiv) müəyyən etmək;
3. Dərsin motivasiyasını işləyib hazırlamaq;
4. Tədqiqat sualını qısaca ifadə etmək;
5. Tədqiqat aparma mərhələsini planlaşdırmaq;
6. Fasilitasiya üçün suallar hazırlamaq;
7. İnformasiyanın təşkilinin mümkün üsullarını müəyyən etmək;
8. İdeyaları və çıxarılmalı olan nəticələri qısaca ifadə etmək;
9. Dərsin hər mərhələsinə sərf olunan vaxtı müəyyən etmək;
10. Qiymətləndirmənin metod və üsullarını müəyyən etmək;
11. Dərs üçün lazım olan ləvazimat və təchizatı müəyyən etmək;
12. İşin gedişini (müəllim və şagird fəaliyyətini) səmərəli təşkilinin yollarını müəyyən etmək (4, s. 60).

Dərs, onun mövzusu, planlaşdırılması, təşkili haqqında danışan zaman prof. V. Xəlilovun maraqlı bir fikrini xatırlatmaq lazımdır. O yazır: "Əhatə etdiyi elmi-sənət sahəsindən asılı olaraq hər hansı əsər üzərində işləyərkən müəllif əvvəlcə mövzu seçir, mövzuya uyğun janr müəyyənləşdirir, nəzərdə tutduğu ideyanın tam mənasında açılması, oxucuya, dinləyiciyə, tamaşaçıya çatdırması üçün əldə olan bütün vasitələrdən istifadə etməyə çalışır. Dərs də belədir. Onun da müəyyən mövzusu, tipi, forması, təzahür vasitələri var. Hər hansı sənətkarın əsər üzərində yaradıcılıq həyəcanı ilə ideal dərsə hazırlaşmağın və onu şagirdlərə çatdırmağın yolları üzərində düşünərkən yaranan həyəcan arasında heç bir fərq yoxdur. Çünki dərs adlı geniş yayılan əsərin müəllifi də elə müəllimin özüdür" (5, s. 8 ).

Müəllimin tədris fəaliyyətində planlaşdırmanın aşağıdakı formalarından istifadə olunur: 1. Perspektiv planlaşdırma. 2. Cari planlaşdırma

Perspektiv planlaşdırma hər bir müəllimdən bilik və bacarıq tələb edir. Tədris ili üzrə tədris vahidlərinin, mövzuların hansı ardıcıllıqla planlaşdırılması, onlara ayrılan saatların miqdarı, mövzuların standartlara uyğunluğunu müəyyən etmək lazım gəlir.

Perspektiv planlaşdırmanın həyata keçirilməsi aşağıdakı mərhələlərdən ibarətdir:

1. Tədris vahidlərinin məzmun standartlarına uyğun müəyyənləşdirilməsi.
2. Tədris vahidlərinin ardıcıllığının müəyyənləşdirmək
3. İnteqrasiya imkanlarını müəyyən etmək
4. Tədris vahidləri üçün vaxt bölgüsü
5. Müəllim üçün resursların nəzərə alınması.

Tədris vahidlərinin ardıcıllığı təmin olunarkən bir sıra cəhətlərə diqqət yetirmək lazımdır:

– Məzmun ardıcıllığı - bu zaman tədris vahidlərinin məzmunu nəzərə alınmalıdır. Əvvəlcə sadə, sonra isə mürəkkəb məzmuna malik tədris vahidləri verilməlidir.

– Xronoloji ardıcıllıq - tədris vahidlərinin zamana görə ardıcıllığıdır.

– Məntiqi ardıcılllıq - tədris vahidlərinin o qaydada düzülməsidir ki, bu zaman əvvəlki tədris vahidlərində öyrənilən anlayışlar sonrakı tədris vahidlərindəki anlayışların başa düşülməsinə kömək etsin.

Perspektiv planlaşdırma zamanı il üzrə tarixi günlər, bayramlar nəzərə alınmalıdır.

Perspektiv planlaşdırma zamanı müəllimlərin ən çox buraxdığı səhvləri aşağıdakı kimi vermək olar:

1. Tədris vahidlərini müəyyənləşdirərkən məzmun standartlarının düzgün nəzərə alınmaması;
2. Tədris vahidləri üzrə ardıcıllığın pozulması;
3. Tədris vahidlərinin həcminə uyğun olaraq vaxt bölgüsünün düzgün verilməməsi;

Cari planlaşdırma müəllimin gündəlik planlaşdırması da adlanır. Hər bir müəllim dərsdə səmərəliliyi və keyfiyyəti təmin etmək üçün mütləq cari planlaşdırmanı tərtib etməlidir. Cari planlaşdırmanın tərtibi müəllimdən xüsusi bacarıq tələb edir. Bu planda 45 dəqiqəlik dərsin ilk dəqiqəsindən son dəqiqəsinə qədər olan bütün mərhələləri aydın şəkildə əks olunur.

Hər bir müəllim planlaşdırmanı başlayarkən 4 əsas suala cavab verməlidir: 1. Nə öyrədilməli?; 2. Necə öyrədilməli?; 3. Hansı şəraitdə?; 4. Necə qiymətləndirmək olar?;

Müəllim cari planlaşdırmada standart, mövzu, məqsəd, inteqrasiya, iş forması, üsullar, resurs və dərsin mərhələləri - motivasiya, tədqiqatın aparılması, məlumatın mübadiləsi, məlumatın müzakirəsi, ümumiləşdirmə və nəticə,

qiymətləndirmə kimi məsələləri aydın şəkildə ifadə etməyi bacarmalıdır.

Hər bir dərsdə reallaşdırılacaq standartların müəyyən edilməsi ilk iş kimi qarşıda durur. Standartların sayı dərsin məqsədindən asılı olaraq dəyişilə bilər. Hər bir müəllim əsas və alt standartlarda ifadə olunmuş fikri aydın başa düşməli və onların təlim prosesində reallaşmasına çalışmalıdır.

Mövzu adətən perspektiv planlaşdırmadan götürülür. Qarşıya qoyulmuş məqsəd isə təlimin son nəticəsində əldə edilmiş bilik və bacarıqlarda öz əksini tapır. Məqsəd müəyyən edilərkən çalışmaq lazımdır ki, o, şagird üçün də aydın olsun.

Təlimin iş formasının seçilməsi zamanı da elə formalar seçilməlidir ki, həmin formalarla şagirdlər qarşıya qoyulmuş məqsədə doğru irəliləyə bilsinlər. Təlim üsulları da hər nə qədər rəngarəng olsa, bir o qədər dərs maraqlı olacaqdır.

Dərsin mərhələləri dərsin tipindən asılı olaraq qurulur. Müəllim hər bir mərhələni planlaşdırmada aydın şəkildə qeyd etməli və hər bir mərhələdə görüləcək işin mahiyyətini planda ifadə etməlidir.

**Problemin aktuallığı.** Müəllimin tədris fəaliyyətinin planlaşdırılması işinin qiymətləndirilməsi pedaqoji əsas kimi böyük əhəmiyyət daşıyır. Belə ki, müəllimin tədris fəaliyyətinin ilk mərhələsi planlaşdırmadır. Tədris fəaliyyətinin planlaşdırılmasını qiymətləndirmək müəllimin görəcəyi işi haqqında aydın təsəvvürlər yarada bilir.

**Problemin yeniliyi.** Planlaşdırmadan müəllimin tədris fəaliyyətinin qiymətləndirilməsinin pedaqoji əsası kimi bəhs edilmişdir. Bununla da yeni təhsil sistemində onun vacibliyi bir daha diqqətə çatdırılmış və xüsusiyyətləri şərh olunmuşdur.

**Problemin praktik əhəmiyyəti.** Tədrisin ən zəruri hissəsi olan planlaşdırmanın əhəmiyyəti vurğulanmaqla onun hansı səviyyədə qurulması yollarından da bəhs edilmişdir. Hər bir müəllim qeyd olunan məsələləri öyrənməklə öz tədris fəaliyyətini düzgün qurmağa nail olacaqdır.

**Ədəbiyyat:**

1. Abbasov, Ə. Müasir dərs: o necə olmalıdır? Ə. Abbasov, F. Rüstəmov, B. İbadova, ( və b.) // -Baslı: Kurikulum, - 2013. № 3, - s. 54-67.

2. Suleymanova, A. Tədris proqramları müəllim və şagirdlərin məktəbdəki fəaliyyəti fəaliyyəti nəzərə alınaraq tərtib olunmalıdır // -Bakı: Kurikulum, - 2012. № 4, - s. 23-29.

3. Paşayev Ə. Pedaqogika: Yeni kurs. Pedaqoji Universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti / Ə. Paşayev, F. Rüstəmov. – Bakı: Elm və təhsil, -2010. -464 s.

4. Veysova, Z. Fəal dərsi səmərəli keçmək üçün müəllim nəyi bacarmalıdır? Planlaşdırma bacarığı // -Bakı: Kurikulum, - 2008. - № 3, -s. 60-66.

5. Xəlilov, V. Dərsin səmərəliliyin artırılması məsələlərinə dair // -Bakı: Kurikulum, - 2015. -№ 4, -s. 5-11.

**E-mail:** shehriyarmecidov1990@gmail.com

**Rəyçi:** *ped.ü.fəls.dok.***İ.A. Cavadov**

**Redaksiyaya daxil olub:** 27.04.2021.